# Müharibənin gedişatını dəyişən əməliyyat



***İşğaldan azad edilməsinin bir illiyində Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər etdi. Hadrut qəsəbəsi uğrunda gedən döyüşlər istər strateji mövqeyi, istərsə də hərbi cəhətdən müharibənin gedişatını dəyişdirən hadisələrdən biri hesab olunur. Burada qurulan istehkamlar, toplaşan canlı qüvvə ondan xəbər verirdi ki, ermənilər Hadrutun müdafiəsini ən önəmli vəzifələrdən biri kimi qarşılarına məqsəd qoymuşdular. Bunu Hadrut uğrunda gedən döyüşlərin gedişatına nəzər salaraq, əminliklə söyləmək olar.***

Ölkə başçısının da xatırlatdığı kimi, döyüşlər zamanı 10 minə yaxın fərarisi olan Ermənistan ordusu Hadrutun müdafiəsi üçün əraziyə hətta əlavə qüvvələr cəlb etmişdi. Prezidentin Hadrut səfəri ilə bağlı bizimlə fikirlərini bölüşən veteran jurnalist-naşir Hacı Mehman Fərzullayev bildirdi ki, bu qəsəbənin işğaldan azad edilməsi asan olmasa da, Azərbaycan Ordusu bu çətin vəzifənin öhdəsindən məharətlə gəldi.

– Hadrutun işğaldan azad edilməsi əməliyyatı bir neçə gün davam etdi. Hər birimiz yaxşı xatırlayırıq, həmin günlərdə erməni lobbisi, erməni təbliğatı internet portallarında, müxtəlif xəbər agentliklərində yalan xəbərlər yayır, Hadrutun azad edilmədiyini, Ermənistan ordusunun nəzarətində olduğunu bildirirdilər. Əlbəttə, məğlubiyyətə doğru sürüklənən dövlətin bu cür yalançı təbliğatlara əl atması başadüşüləndir. Lakin biz həm də şahidi olurduq ki, Hadrut qəsəbəsi ilə bağlı xəbərlərin miqyası həmişəki yalanlardan daha böyükdür. Bunun səbəbi isə bəllidir. Çünki düşmən elə hesab edirdi ki, Azərbaycan Ordusu bura daxil ola bilməz. İkincisi, müharibənin gedişatında ordumuzun Hadruta istiqamətlənəcəyi gözlənilməz idi. Ölkə başçısı Hadrut qəsəbəsindəki çıxışı zamanı bu amili xüsusi vurğulayaraq dedi ki, onlar bizi Füzulidə gözləyirdilər. Lakin gözlədikləri kimi olmadı.

Digər bir məsələ isə ondan ibarət idi ki, cəbhəboyu Azərbaycan əsgərindən qaçan, döyüş bölgələrini tərk edən, silah-sursatı yerindəcə qoyub geri çəkilən “qəhrəman” ermənilər xüsusi tapşırıqla, sonradan təşkil olunmuş hərbi birləşmələrlə Hadruta hücumlar təşkil edir, qəsəbəni yenidən nəzarətə götürmək istəyirdilər. Ermənistan müdafiə nazirliyi ilk vaxtlar müxtəlif yalan xəbərlərlə Hadrutun öz nəzarətlərində olduğunu bildirirdi. Daha sonra əsgərlərimizin Hadrutda üçrəngli bayrağımızı dalğalandırması və Ali Baş Komandana raport verməsi işləri dəyişdirdi. Dövlət başçısının “yalanlar nazirliyi” adlandırdığı qurum etiraf etməyə məcbur oldu ki, Azərbaycan Ordusu Hadruta daxil olub və buradakı nəzarəti tam ələ keçirib. Lakin məsələ bununla da yekunlaşmadı. Erməni silahlı birləşmələrinin bir neçə gün davam edən əks-hücumları nəticəsiz qalsa da, Hadrutun yenidən qaytarıldığı barədə xəbəri yayan nazirlik bununla da öz acizliklərini göstərməyə davam edirdi.

Qeyd edək ki, Hadrut qəsəbəsinin baş planının ilkin versiyası hazırdır. dövlətimizin başçısı dedi ki, təqdim edilən baş plana bir çox irad bildirib. Bu səbəbdən baş plan ictimaiyyətə təqdim edilməyib və hələ üzərində işlənilməli bir çox məsələ var. Bu hadisə bir daha ondan xəbər verir ki, Prezident İlham Əliyev işğaldan azad edilən torpaqlarımızın bərpası prosesində yaxından iştirak edir. Şübhə yoxdur ki, yaxın günlər ərzində baş plan tam hazır olacaq və dövlət başçımız tərəfindən təsdiq edildikdən sonra layihə üzrə işlərə start veriləcək.

***Qələmə aldı:***
***İmran ƏLİYEV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 13 oktyabr.- S.8.